

*Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir*
**Heydər ƏLİYEV**

# GÖMRÜK XƏBƏRLƏRİ

**10 İYUL 2020-ci il**
**№ 15 (1171)**

*Qəzet 1995-ci il iyunun 30-dan çıxır*

CUSTOMS NEWS | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin orqanı | ВЕСТНИК ТАМОЖНИ


# Makroiqtisadi sabitliyi qorumaq üçün bütün imkanlar səfərbər edilib

***Bu gün Azərbaycanın hərtərəfli inkişafı çərçivəsində regionlara xüsusi diqqət verilir, bu istiqamətdə müxtəlif tədbirlərin həyata keçirilməsi üçün bütün imkanlardan maksimum istifadə edilir.***



Vaxtaşırı regionlara səfər etmək artıq çoxdan Prezident İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Demək olar, elə ay yoxdur ki, dövlət başçısı bu və ya digər bölgəyə səfərə çıxıb orada hansısa obyektin açılışı, yaxud təməlqoyma mərasimində iştirak etməsin.

Bu səfərlərin diqqətçəkən məqamlarından biri də odur ki, Prezident ictimaiyyətin nümayəndələri ilə görüşür, onların təmsil etdikləri rayonun, şəhərin problemləri ilə maraqlanır və həmin problemlərin həlli ilə bağlı operativ tədbirlər görür.

Prezident İlham Əliyevin dövlət başçısı kimi imzaladığı ilk sənədlərdən biri məhz regionların sosial-iqtisadi inkişafı ilə bağlı olub. Regionların 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafına yönələn ilk dövlət proqramının təsdiqlənməsi ilə bölgələrin həyatında yeni dövr başlanıb.

İndi ilk sənədin qəbulundan 16 ildən çox vaxt keçib. Bu illər ərzində 3 analoji dövlət proqramı qəbul olunaraq icra edilib. Hazırda 4-cü proqramda nəzərdə tutulan tədbirlər həyata keçirilir. Onlar isə məzmunca 10-15 il əvvəlki tədbirlər deyil. Əgər ilk proqramların qarşısında regionların adi sosial və infrastruktur problemlərinin həlli dururdusa, sonrakı illər ölkəmizin sosial-iqtisadi inkişafında bölgələrin rolunun və payının təmin edilməsi, ardınca isə qeyri-neft sektorunun inkişaf ağırlığını çiyinlərinə götürməsi kimi vəzifələr icra olunurdu.

Nəticə göz qabağındadır. Bu gün siyasi mövqeyi və əqidəsindən asılı olmayaraq heç kim iddia edə bilməz ki, ötən müddət ərzində regionlarımızın həm imkanı, həm də siması dəyişməmişdir. Ötən ay dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın regionlara səfərləri bir daha təsdiqlədi ki, heç bir çətinlik, hətta koronavirus pandemiyası Azərbaycanın sosial sahədə həyata keçirdiyi layihələri təxirə salmaq gücündə deyil.

Bu baxımdan Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın səfərlərinə Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında iştirakla başlamaları həm də rəmzi xarakter daşıyır. Başqa sözlə desək, mühüm səhiyyə obyekti olan yeni korpusun pandemiya dövründə dövlətin ali şəxslərinin iştirakı ilə açılması bir daha sübut etdi ki, Azərbaycan hakimiyyəti üçün vətəndaşın marağının təmin edilməsindən, bugünkü vaxtda isə sağlamlığının qorunmasından yüksək vəzifə yoxdur.

Prezident özü korpusun açılışındakı çıxışında bununla bağlı belə demişdir: "...əgər son illər ərzində mənim göstərişimlə ölkəmizin hər bir yerində, o cümlədən Bakı şəhərində müasir xəstəxanalar tikilməsəydi, bu gün biz koronavirusla mübarizədə çox böyük problemlərlə üz-üzə qala bilərdik. Son illərdə ölkəmizin səhiyyə sisteminin möhkəmləndirilməsi işində ən vacib məsələlərdən biri yeni xəstəxanaların tikilməsi, köhnə xəstəxanaların isə əsaslı təmiri və bərpası olmuşdur".

Qeyd edək ki, Gəncə şəhərinə qədər artıq Bakıda, Sumqayıtda və Abşeron rayonunda modul tipli xəstəxanalar istifadəyə verilmişdir. Yaxın vaxtlarda digər şəhərlərdə də analoji xəstəxanaların istifadəyə veriləcəyi gözlənilir. Ümumilikdə ölkəmizdə 10 modul xəstəxananın fəaliyyətə başlaması nəzərdə tutulur ki, bu da əlavə 2 min çarpayı deməkdir.

Həmişə olduğu kimi, Gəncəyə, Samuxa və Mingəçevirə son səfərində də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva müxtəlif təyinatlı çoxsaylı obyektlərin açılışında iştirak etdilər. Gəncədəki "NB Satınalma və Ticarət" MMC-nin süni mərmər və qranit istehsalı zavodunun açılışı, MİDA-nın tikdiyi yaşayış kompleksi, "Şah Abbas" və "Uğurlu Xan" karvansara kompleksinin bərpası, Gəncə Dövlət Dram Teatrının yeni binasının, eləcə də möhtəşəm idman kompleksinin inşası, Azərbaycan Dövlət Aqrar Universitetinin korpuslarının əsaslı təmiri, Gəncəçay üzərindəki 5 körpünün bərpası, Samuxda məcburi köçkünlər üçün 9 yaşayış binasının tikilməsi, "Aqro Dairy" MMC-nin aqroparkının uğurlu fəaliyyəti, Mingəçevirdəki "Azərbaycan" İES-in yenidən qurulması, həmin şəhərdə Dövlət Rəmzləri Muzeyinin açılışı və s. məhz praqmatik qərarların nəticəsidir.

Belə ki, cəmi 3 bölgədə istifadəyə verilən, yaxud verilmək ərəfəsində olan bu obyektlər adi vaxtda yox, pandemiya dövründə ərsəyə gəlmişdir. Göründüyü kimi, bütün çətinliklərə baxmayaraq, hətta bütün əsas qüvvələr və imkanlar COVID-19-la mübarizəyə yönəldilsə də ölkəmizdə həyat, o cümlədən regionların inkişafı davam edir.

Bəli, bəşəriyyəti çətin sınaq qarşısında qoyan qlobal pandemiya ölkələrin iqtisadiyyatına ciddi mənfi təsirini göstərməkdədir. Bir tərəfdən karantin dövründə işsiz əhalinin maddi durumunun yaxşılaşdırılması, sahibkarlıq subyektlərinə dəstək göstərilməsi, əlbəttə ki, dövlətin iqtisadi imkanlarına təsir edən amillərdir.

Pandemiyadan az itkilərlə çıxmaq üçün qabaqlayıcı tədbirlər görən Azərbaycan dövləti makroiqtisadi sabitliyi qorumaq üçün imkanlarını səfərbər edib. Hökumət əhalinin sosial rifahının yaxşılaşdırılması, sahibkarlara dəyən zərərin ödənilməsi istiqamətində ciddi qərarlar qəbul edib, bir sıra qanunvericilik aktlarında dəyişikliklər olunub. Bu dəyişikliklərə əsasən, sahibkarlıq subyektlərinə vergi güzəştləri və tətillərinin verilməsi, sosial sığorta yükünün azaldılması, kredit faizlərinin subsidiyalaşdırılması və zəmanət alətlərinin təkmilləşdirilməsi prosesi həyata keçirilir.

*davamı 2-ci səh.*

## Dövlət Gömrük Komitəsi ilə BMT-nin İnkişaf Proqramı arasında əməkdaşlığın perspektivləri müzakirə edilib



*İyulun 9-da "Azərbaycan və Gürcüstan arasında "Qırmızı Körpü" sərhəd-keçid məntəqəsinin inkişafına dəstək" layihəsi çərçivəsində alınmış nəqliyyat vasitələrinin Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) tərəfindən Dövlət Gömrük Komitəsinə təhvil verilməsi mərasimi keçirilib.*

***bax səh. 3***

## "Bergen Anlaşması"nın müddəaları ilə bağlı fikir mübadiləsi aparılıb



*İyulun 10-da Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev ilə Avropa İttifaqının Beynəlxalq və Ümumi İşlər üzrə direktoru Sabine Henzler arasında videokonfrans formatında görüş keçirilib.*

***bax səh. 3***

## Rəsmi xronika

İyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının birinci Prezidenti Nursultan Nazarbayevə telefonla zəng edib.

Dövlətimizin başçısı Nursultan Nazarbayevi yubileyi münasibətilə təbrik edib, ona möhkəm cansağlığı, Qazaxıstanın inkişafı naminə fəaliyyətində yeni uğurlar arzulayıb. Prezident İlham Əliyev Nursultan Nazarbayevin müstəqil Qazaxıstan Respublikasının quruculuğunda müstəsna rolunu qeyd edərək, məhz onun yorulmaz səyləri nəticəsində Qazaxıstanın böyük inkişaf yolu keçdiyini, xalqın rifah halının təmin edilməsi və ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi istiqamətində böyük nailiyyətlərin əldə edildiyini vurğulayıb. Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevlə Nursultan Nazarbayev arasında mövcud olmuş dostluq münasibətlərinin ikitərəfli əlaqələrimizin qurulmasında mühüm rol oynadığını bildirib. Eyni zamanda, Prezident İlham Əliyev Nursultan Nazarbayevin türkdilli dövlətlər arasında əməkdaşlığın genişləndirilməsi işinə verdiyi töhfələri də yüksək qiymətləndirib.

Nursultan Nazarbayev göstərilən diqqətə, təbrikə və xoş sözlərə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan-Qazaxıstan dostluq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub.

* * *

İyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışında iştirak ediblər.

Məlumat verildi ki, modul tipli hospital 10 korpusdan ibarətdir və burada 800 xəstəni qəbul etmək üçün hər cür imkan var. Modul tipli hospitalda yaradılan şərait müalicə işi ilə yanaşı, laborator müayinələri də qısa müddətə və keyfiyyətlə aparmağa imkan verir. Belə modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır.

Azərbaycan dövlətinin koronavirus pandemiyasının yayıldığı ilk günlərdən onunla mübarizə istiqamətində atdığı çox mühüm addımlar sırasında modul tipli xəstəxanaların yaradılması böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, ölkə ərazisində ümumilikdə 10 modul tipli xəstəxana kompleksinin quraşdırılmasına başlanıldı ki, onlardan da bir neçəsinin artıq açılışı olub. Ümumilikdə, yaradılacaq modul tipli xəstəxana kompleksləri ölkənin səhiyyə sisteminə əlavə 2000 çarpayılıq ehtiyat yaradır.

Tibb ocağında yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və "Xəzər" Televiziyasına müsahibə verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Baş katibi Antonio Quterreşə telefonla zəng edib. Telefon danışığı əsnasında Prezident İlham Əliyev bildirib ki, Azərbaycan COVID-19 pandemiyasına qarşı mübarizədə Baş katibin və BMT-nin səylərini, o cümlədən çoxtərəfli əməkdaşlığı dəstəkləyir.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri statusunda üzv dövlətlər adından BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyasının çağırılması barədə müraciətinə qısa müddətdə cavab verdiyinə görə Baş katibə təşəkkürünü çatdırıb və BMT-nin 130-dan çox üzv dövlətinin bu təşəbbüsü dəstəklədiyini vurğulayıb.

Dövlətimizin başçısı BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyasının çağırılmasında Baş katibin liderliyinin mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev xüsusi sessiyanın keçirilməsi ilə əlaqədar texniki-logistik məsələlərin həllində Azərbaycanın öz töhfəsini verməyə hazır olduğunu bildirib.

Prezident İlham Əliyev və Baş katib Antonio Quterreş telefon danışığında əminliklərini ifadə ediblər ki, keçiriləcək xüsusi sessiya COVID-19 pandemiyasına qarşı mübarizədə önəmli addım olacaq.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Bakının Nizami rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 110/35/10 kilovoltluq "8-ci km" yarımstansiyasının açılışında iştirak edib.

Yarımstansiyada görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi.

Bildirildi ki, "8-ci km" yarımstansiyası 52 il əvvəl tikilmişdir və istismar müddətini çoxdan başa vurmuşdu. Nəticədə burada tez-tez qısa qapanmalar olurdu və enerji sistemi qəza təhlükəsi ilə üzləşirdi. Yenidənqurma nəticəsində bu problemlərin hamısı aradan qaldırılıb. Burada görülən yenidənqurma işləri çərçivəsində yarımstansiyanın açıq və qapalı paylayıcı qurğuları, transformatorları, inzibati-idarəetmə binası və digər zəruri infrastrukturu müasir səviyyədə yenilənib. Yarımstansiyanın yenidən qurulmasını zəruri edən səbəblərdən biri də Nizami rayonunda 35 kV-luq şəbəkənin genişlənməsi və gərginlik sinfinin dəyişdirilməsi idi. Görülən işlər nəticəsində yarımstansiyanın gücü 55 MVA-dək artırılıb. Burada yaradılmış Dispetçer İdarəetmə Mərkəzi və mikro SCADA sistemi yarımstansiyanın fəaliyyətinin səmərəliliyini daha da yüksəldib.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı. Yenidən qurulan bu yarımstansiya Xətai və Nizami rayonlarında yüz minlərlə əhalinin, sənaye, məişət-kommunal, təhsil, tibb və iaşə müəssisələrinin elektrik enerjisi ilə fasiləsiz təmin edilməsində mühüm rol oynayacaq.

GÖMRÜK XƏBƏRLƏRİ
CUSTOMS NEWS | ВЕСТНИК ТАМОЖНИ



# Makroiqtisadi sabitliyi qorumaq üçün bütün imkanlar səfərbər edilib

*əvvəli 1-ci səh.*

Beləliklə, Prezident İlham Əliyevin təşəbbüsü və tapşırıqları əsasında hökumət milli iqtisadiyyata zərərləri minimallaşdırmağa çalışır. Hazırda sahibkarlara dövlət dəstəyi davam etdirilir. İş adamlarının güzəştli kredit almaq imkanları genişləndirilir.

Prezident İlham Əliyevin qəbul etdiyi qərarlar dövlət başçısnın hansısa çətin vəziyyətdə sahibkarların ən böyük hamisi olduğunu bir daha təsdiqləmiş oldu. İndi hər kəs şahiddir ki, dövlət başçısı beynəlxalq müstəvidə baş vermiş problemin yarada biləcəyi fəsadların neytrallaşdırılması istiqamətində zəruri olan bütün addımları atır.

İqtisadiyyata geniş dəstək paketini əhatə edən proqramlar təxirəsalınmaz maliyyə dəstəyinin həyata keçirilməsini, biznes və investisiya mühitinin cəlbediciliyinin daha da artırılmasını nəzərdə tutur. Bu günədək 130 mindən çox sahibkara maliyyə dəstəyi göstərilib. Qəbul edilmiş proqramlar işçi heyəti ilə birlikdə 310 mindən artıq vətəndaşı əhatə edib. Aktiv vergi ödəyicilərinin əksəriyyəti dövlətdən dəstək alıb və indiyədək 155 milyon manatdan çox maliyyə vəsaiti sahibkarların bank hesablarına köçürülüb.

Qəbul edilmiş vergi və sosial güzəştlər paketinin ümumi maliyyə dəyəri 130 milyon manatdır. Güzəştlər pandemiyanın təsirinə məruz qalan mikro, kiçik və orta sahibkarlıq subyektlərini, bəzi dəyişikliklər isə bütövlükdə hər bir vergi ödəyicisini əhatə edir. Bu güzəştlər paketi ortamüddətli dövr üçün sahibkarların vergi və sosial yükünün azaldılmasına səbəb olacaq, onlara öz gəlirlərini bərpa etməyə və biznesini inkişaf etdirməyə, bütünlükdə özəl sektorun genişlənməsinə zəmin yaradacaq.

Pandemiya dövründə cənab Prezidentin 2020-ci il 4 iyun tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi qaydası təsdiq olunub və fondun nizamnaməsində dəyişikliklər edilib.

Yeni mexanizmlər biznes krediti vəsaitinin alınması prosedurlarının asanlaşdırılması və inzibatçılığın sadələşdirilməsini də nəzərdə tutur. Sahibkarların dövlət zəmanətli krediti asan əldə etməsi üçün Elektron Kredit Platforması yaradılıb. Belə ki, biznes krediti almaq istəyən sahibkar onlayn rejimdə bu platforma üzərindən müraciət edəcək. Müvəkkil kredit təşkilatlarının iştirakı ilə elektron platforma üzərindən dövlət dəstəyinin həyata keçirilməsi mexanizmi MDB-də ilk dəfə Azərbaycanda tətbiq olunur. Elektron Kredit Platforması sahibkara şəffaf, çevik, məmur müdaxiləsindən kənar, sağlam rəqabət mühitində kredit almaq imkanı yaradır. Eyni zamanda kredit üçün müraciət sistemi sahibkar tərəfindən izlənə bilən rəqəmsal həllə söykənir.

Yeni qaydalara əsasən, Sahibkarlığın İnkişafı Fondunun sahibkarlığın güzəştli kreditləşdirilməsinin yeni mexanizmləri də tətbiq olunur. Bu mexanizmlərdən biri daşınmaz əmlak girovu olmayan sahibkarların güzəştli kreditlərə çıxış imkanlarının yaradılması məqsədilə avadanlıqların alınması üçün onlara kreditlərin verilməsidir.

Mexanizmin mahiyyəti ondan ibarətdir ki, güzəştli kredit yeni avadanlıqların alınmasına yönəldilir və həmin avadanlıqlar da girov kimi qəbul edilir. Bu mexanizm üzrə bankların faiz dərəcəsi 7 faiz təşkil edir. Tətbiq olunan yeni mexanizm biznes subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının daha da genişlənməsinə, investisiya fəallığının, iqtisadi artımın və məşğulluğun dəstəklənməsinə əhəmiyyətli töhfə verəcək.

Bundan başqa, kənd təsərrüfatı üzrə uzunmüddətli investisiya tələb edən sahələrdə (məsələn, çayçılıq, bağçılıq və sair) kiçik həcmli kreditlər üzrə kredit müddəti 3 ildən 5 ilə, orta həcmli kreditlər üzrə 5 ildən 7 ilədək artırılıb və kredit dövrünün yarısı güzəşt müddəti olaraq təsbit edilib. Mexanizmin tətbiqində əsas məqsəd kredit risklərinin azaldılması, kiçik və orta sahibkarların güzəştli kreditlərə çıxış imkanlarının artırılmasıdır.

Təsdiq edilmiş digər mexanizm fors-major hadisə (təbii fəlakətlər, epidemiyalar və sair) ilə bağlı şəraitin dəyişməsi səbəbindən Sahibkarlığın İnkişafı Fondunun Müşahidə Şurasının müəyyən etdiyi qaydada kredit təşkilatlarının fond qarşısındakı borc öhdəliyinin zəruri hallarda restrukturizasiya olunması, kredit öhdəliyin icrasına möhlət verilməsidir.

Fərmanla Sahibkarlığın İnkişafı Fondunun nizamnaməsində əlavə və dəyişikliklər edilərək fəaliyyət istiqamətlərinə zəmanət və subsidiya verilməsi mexanizmləri də yaradılıb.

Bununla yanaşı, sahibkarlara verilən yeni kreditlər üzrə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılması, eləcə də mövcud kredit borcu olan sahibkarların kredit faizlərinin bir hissəsinin dövlət tərəfindən maliyyələşdirilməsi mexanizmlərinin tətbiqinə başlanılıb.

Belə ki, qeyri-neft sektoruna investisiya qoyuluşlarının və özəl sektorda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, eləcə də koronavirus pandemiyasının işgüzar mühitə və iqtisadi fəallığa təsirinin minimuma endirilməsi məqsədilə mövcud maliyyə mexanizmlərinin genişləndirilməsi və əlavə dəstək alətləri tətbiq olunacaq.

Biznes kreditlərinə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılması mexanizminə əsasən, 500 milyon manat həcmində yeni biznes krediti portfelinin 60 faizədək hissəsinə dövlət zəmanəti verilir, həmçinin həmin kreditlərin illik faiz dərəcəsinin 50 faizi dövlət tərəfindən maliyyələşdirilir. Bu mexanizm müddəti 3 ilədək, illik faiz dərəcəsi 15 faizdən çox olmayan kreditlərə şamil edilir. Bu kreditlər üzrə güzəşt müddəti 12 aya qədərdir.

Bu proqramların icrası iqtisadi aktivliyin bərpa olunması, sahibkarların, xüsusilə də kiçik və orta sahibkarların maliyyə əlçatanlığının artırılması, pandemiyadan zərərçəkmiş fəaliyyət sahələrinə investisiya qoyuluşunun sürətləndirilməsini təmin edəcək.

Proqramların icrası eyni zamanda bu fəaliyyət sahələri üzrə məşğulluğun qorunub saxlanması, maliyyə risklərinin bölüşdürülməsi, maliyyə-bank sektorunun canlanması, pandemiyadan zərərçəkmiş sahibkarların maliyyə vəziyyətinin yaxşılaşdırılması və problemli kreditlərin həcminin yüksəlməsi risklərinin aradan qaldırılmasına imkan yaradacaq.

Göründüyü kimi, illər öncə qlobal maliyyə böhranı zamanı çevik və praqmatik iqtisadi siyasəti, vaxtında görülmüş tədbirləri ilə dünya iqtisadiyyatındakı mənfi proseslərin ölkəmizə təsirlərinin minimuma endirilməsinə imkan yaradan Prezident İlham Əliyev qlobal pandemiya dövründə də qəbul etdiyi qərarlarla ölkəmizin bu çətin vəziyyətdən minimum itkilərlə çıxması üçün ciddi tədbirlər görür.






Azərbaycan dövləti sözügedən sahədə qlobal əməkdaşlığa da layiqli töhfələr verir. Prezident İlham Əliyevin bu il mayın 4-də keçirilən Qoşulmama Hərəkatının "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü zamanı BMT Baş Assambleyasının Xüsusi Sessiyasının təşkil olunması təşəbbüsü reallığa çevrilir. Belə ki, artıq 130-a qədər ölkə Azərbaycan Prezidentinin təşəbbüsünə dəstək verdikləri barədə BMT Baş katibinin ofisini məlumatlandırıblar.

Koronavirus infeksiyası bütün bəşəriyyəti təhdid etməkdə davam edir. Son statistikaya əsasən, artıq dünyada 12 milyondan artıq insan COVID-19-a yoluxub. Virusdan ölənlərin sayı isə 500 mini ötüb. Yaxın dövrlər üçün üfüqdə ümidverici heç nə görünmür. Ən inkişaf etmiş ölkələr belə bu təhlükənin qarşısında aciz durumda qalıb.

Bu qlobal problem bir sıra şərtləri diktə edir ki, onlardan biri də virusla mübarizədə beynəlxalq həmrəylikdir. Prezident İlham Əliyev virusun qlobal problemə çevrilməsini nəzərə alaraq onunla mübarizədə beynəlxalq əməkdaşlığı zəruri hesab edir. Məhz dövlətimizin başçısının təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsində də əsas məqsəd koronavirusun yayılmasına qarşı mübarizədə beynəlxalq əməkdaşlığın həyata keçirilməsindən ibarət olub.

Türk Şurasının fövqəladə Zirvə görüşü pandemiya ilə mübarizəyə həsr olunmuş ilk beynəlxalq tədbir idi. Bu tədbir məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşdı. Təsadüfi deyil ki, məhz bundan sonra qlobal problemin mənfi təsirlərini azaltmaq üçün dövlətlərin birgə səy göstərmələri bütün dünyada aktuallaşmağa başladı. Mayın 4-də isə İlham Əliyevin təşəbbüsü ilə ikinci beynəlxalq tədbir - Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirildi.

40-a yaxın ölkənin dövlət və hökumət başçısının, xarici işlər nazirlərinin, o cümlədən BMT Baş Assambleyasının prezidentinin, Afrika İttifaqının sədrinin, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru iştirak etdiyi Zirvə toplantısı, ilk növbədə, Azərbaycana və Prezident İlham Əliyevə olan inamın, etibarın və etimadın göstəricisi kimi tarixə düşdü. O cümlədən Zirvə görüşünə BMT-nin Baş katibi Antonio Quterreşin və Avropa İttifaqının ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Cozef Borelin videomüraciət ünvanlaması, habelə Zirvə görüşünü təşkil etdiyinə və pandemiya ilə mübarizəyə ciddi əməli töhfələr verdiyinə görə Azərbaycan Prezidentinin fəaliyyətinin təqdir olunması, ünvanına çoxsaylı təşəkkürlər bildirilməsi ölkəmizin və onun liderinin beynəlxalq arenada yüksək nüfuzunun növbəti əyani göstəricisi oldu.

Bu tədbiri keçirməklə Azərbaycan bir daha təsdiq etdi ki, Qoşulmama Hərəkatına sədrliyi öz üzərinə götürərkən beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacağına, həmrəyliyin gücləndirilməsinə və qarşılıqlı dəstəyi rəhbər tutacağına dair vədlərinə qətiyyətlə əməl edir. Eyni zamanda, Zirvə görüşü göstərdi ki, ölkəmiz koronavirus pandemiyası ilə bağlı formalaşan yeni reallıqlara, yaranmış vəziyyətə çevik və adekvat reaksiya verir. Ən əsası isə Zirvə görüşü koronavirusla qlobal mübarizənin daha da güclənməsinə təkan verəcək.

Prezident İlham Əliyev Zirvə görüşündə yekun nitqində bu barədə deyib: "Qoşulmama Hərəkatına üzv ölkələrin bir-birinin problemlərini anlayışla qarşılaması, həmrəylik nümayiş etdirməsi və çoxtərəfli əməkdaşlığa üstünlük verməsi böyük əhəmiyyət kəsb edir. Qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq xüsusilə aktualdır. Əminəm ki, bu gün dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri tərəfindən edilən çıxışlarda səslənən dəyərli fikirlər və təkliflər koronavirus xəstəliyinə qarşı bizim birgə mübarizəmizə töhfə verəcəkdir".

Onu da qeyd edək ki, Azərbaycanın COVID-19-a qarşı mübarizədə göstərdiyi qlobal həmrəylik nümunəsi yalnız beynəlxalq tədbirlərin keçirilməsi ilə yekunlaşmadı. Belə ki, respublikamız Ümumdünya Səhiyyə Təşkilatına iki dəfə könüllü ianə ayırmaqla, 30-dan artıq dövlətə humanitar yardım etməklə beynəlxalq həmrəyliyə əməli töhfələr verdi.

BMT Baş Assambleyası nizamnaməsinə əsasən ehtiyac duyulduğu təqdirdə xüsusi sessiyalar keçirə bilər. Belə sessiyalar BMT Təhlükəsizlik Şurasının və ya BMT-yə üzv ölkələrin çox hissəsinin müraciəti əsasında Baş katib tərəfindən çağırılır. BMT yaranandan indiyə qədər Baş Assambleyanın qlobal problemlərlə bağlı məhdud sayda xüsusi sessiyaları çağırılıb.

COVID-19-un qlobal problem olduğunu nəzərə alaraq Prezident İlham Əliyev Qoşulamama Hərəkatının onlayn Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış etmişdi.

Zirvə görüşündən sonra Azərbaycan Prezidentinin bu təklifi Qoşulmama Hərəkatının üzv ölkələri arasında razılaşdırılıb. Bundan sonra Qoşulmama Hərəkatının sədri Prezident İlham Əliyev üzv ölkələr adından BMT Baş Assambleyasının təklifi ilə BMT Baş katibi Antonio Quterreşə müraciət edib.

Öz növbəsində BMT Baş katibi mayın 28-də BMT Baş Assambleyasının "Prosedur Qaydaları"na əsasən üzv ölkələrə müraciət edərək 30 gün müddətində təşəbbüsə dair münasibət bildirilməsini xahiş etmişdir. Qaydalara əsasən, BMT üzvü olan ölkələrin çox hissəsi təşəbbüsə dəstək verdiyi təqdirdə, xüsusi sessiya təşkil olunmalıdır. Artıq 130-dan çox ölkə Azərbaycan Prezidentinin təşəbbüsünə dəstək verdiklərini bildiriblər.

Bu, şübhəsiz ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dünyada artan nüfuzunun növbəti təcəssümüdür. Bu təşəbbüsün dəstəklənməsi həm də onu göstərir ki, dövlətimizin başçısı Qoşulmama Hərəkatının sədri kimi qlobal səviyyədə özünün liderlik missiyasını qətiyyətlə və müvəffəqiyyətlə həyata keçirir.

Bu gün Azərbaycan Respublikasının yaratdığı mükəmməl əməkdaşlıq və tərəfdaşlıq formatı ölkəmizə ən qlobal layihələri reallaşdırmağa imkan verir. Azərbaycanın Şərq Tərəfdaşlığı ölkələri sırasında da özünəməxsus yeri var. Eləcə də Avropa İttifaqı ilə əməkdaşlıq dövlətimizin xarici siyasətinin əsas prioritetlərindən biridir.

Bu il iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən sammitində çıxış edərkən Prezident İlham Əliyev məhz bu məsələlərə də toxunmuşdur. Dövlət başçısı Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığımızın mövcud olduğunu vurğulamışdır. Belə ki, Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Hazırda Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələsindəyik.

Avropa İttifaqı ölkəmizin əsas ticarət tərəfdaşıdır. Ticarətimizin təqribən yarısı üzv dövlətlərin payına düşür. 15 ilə yaxındır Azərbaycan Avropa bazarlarına etibarlı şəkildə xam neft nəql edir. Yaxın zamanda ölkəmiz Avropa İttifaqının üzv dövlətlərini təbii qazla təchiz etməyə başlayacaq. 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi olan "Cənub qaz dəhlizi"nin tikintisinin təşəbbüskarı da məhz Azərbaycan olmuş və layihəni maliyyələşdirmişdir. Dövlət başçısı sammitdəki çıxışında Azərbaycan qazını Avropaya çatdıracaq "Cənub qaz dəhlizi"ni enerji əməkdaşlığı, enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsi adlandırmışdır.

Avropanın enerji xəritəsini dəyişdirəcək "Cənub qaz dəhlizi"nin çəkilişi uğurla sona çatmaqdadır. Bu nəhəng layihə beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq şəraitində reallaşmışdır.

"Cənub qaz dəhlizi"nin icrasında yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edirlər. Üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro da "Cənub qaz dəhlizi"nə çoxdan maraq göstərirdilər. Azərbaycan bu ölkələrlə də Avropada enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair anlaşma memorandumu imzalayıb.

ABŞ digər mühüm enerji layihələri kimi, "Cənub qaz dəhlizi"nin reallaşmasına da siyasi və mənəvi dəstək vermiş, hərtərəfli kömək göstərmişdir. ABŞ Prezidenti Donald Tramp dövlətimizin başçısına son bir neçə ildə ünvanladığı məktublarda bildirmişdir ki, iki ölkə mürəkkəb regional çağırışların həlli üçün birgə işləyərək sıx tərəfdaşlıq edir.

Nəql olunan təbii yanacağın 9 Avropa şirkəti tərəfindən alınması nəzərdə tutulub. Bunlar ingilis-holland "Shell", Bolqarıstanın "Bulgargaz", Yunanıstanın DEPA, Almaniyanın "Uniper", Fransanın "Engie", İtaliyanın "Hera Trading", "Edison", "Enel" və İsveçrənin AXPO şirkətləridir.

"Cənub qaz dəhlizi" Məşvərət Şurasının 2015-ci ildən indiyədək altı iclası keçirilib. Bu tədbirlərin hamısına Bakı ev sahibliyi edib. Bu, bir daha təsdiq edir ki, layihənin təşəbbüskarı və aparıcı qüvvəsi Azərbaycandır.

Cari ilin əvvəlində keçirilən altıncı toplantıya nümayəndələrini göndərən ölkələrin sayı əvvəlki tədbirlərdə olduğundan çox idi. Bu isə layihənin artıq qlobal xarakterini və böyük beynəlxalq əməkdaşlıq platforması üzərində ucaldığını göstərir.

Xatırladaq ki, "Cənub qaz dəhlizi"nin təməli 2014-cü il sentyabrın 20-də - "Əsrin müqaviləsi"nin 20 illik yubileyi günü Bakı yaxınlığındakı Səngəçal terminalında qoyulmuşdur. Layihənin nəhəngliyini nəzərə alsaq, onun təməlqoyma və açılış mərasimləri arasındakı vaxt çox qısa olmuşdur. Cəmi 4 ilə yaxın bir vaxt ərzində qazanılan böyük uğur - "Cənub qaz dəhlizi"nin işə düşməsi Azərbaycanın bundan əvvəl həyata keçirdiyi neft-qaz və ixrac layihələrinin təcrübəsinə əsaslanır. Belə ki, Azərbaycan üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərini də təxminən 4 ilə çəkmişdir. Sonra bu kəmərlə yanaşı, "Şahdəniz-1" qazını Azərbaycanın 13 rayonundan keçməklə Gürcüstana və Türkiyəyə çatdıran Bakı-Tbilisi-Ərzurum boru xəttini inşa etmişdir. Əslində Bakı-Tbilisi-Ərzurum kəməri "Cənub qaz dəhlizi"nin bünövrəsi, başlanğıcı rolunu oynamışdır.

"Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimi 2018-ci il mayın 29-da Səngəçal terminalında keçirilmişdir. Buna layihənin dörd seqmentindən ikisinin başa çatması imkan vermişdir. Belə ki, həmin vaxt "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində hasilata başlanmış, CQBK-nın (Cənubi Qafqaz Boru Kəməri) genişləndirilməsi sona çatmışdır.

Bu mühüm hadisədən az sonra, iyunun 12-də Türkiyədə, Əskişəhərdə üçüncü seqment - TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) istifadəyə verildi. Keçən il noyabrın 30-da isə Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində kəmərin Avropa ilə birləşən hissəsinin açılışı oldu.

Dəhlizin sonuncu hissəsi olan TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) bu ilin sonunadək istismara veriləcəyi gözlənilir. Beləliklə, Avropadakı istehlakçılara çoxdandır gözlədikləri Azərbaycan qazı çatdırılacaq.

# Dövlət Gömrük Komitəsi ilə BMT-nin İnkişaf Proqramı arasında əməkdaşlığın perspektivləri müzakirə edilib

***İyulun 9-da "Azərbaycan və Gürcüstan arasında "Qırmızı Körpü" sərhəd-keçid məntəqəsinin inkişafına dəstək" layihəsi çərçivəsində alınmış nəqliyyat vasitələrinin Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) tərəfindən Dövlət Gömrük Komitəsinə təhvil verilməsi mərasimi keçirilib.***







Onlayn formada keçirilən mərasimdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, BMT İnkişaf Proqramının rezident nümayəndəsi Alessandro Frakassetti iştirak ediblər.

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev BMTİP ilə ölkəmizin gömrük orqanları arasındakı səmərəli və işgüzar münasibətlərdən məmnunluqla söhbət açıb və əməkdaşlığın daha da gücləndiriləcəyinə əminliyini ifadə edib.

Son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə gömrük sistemində aparılan islahatlar barədə danışan Komitə sədri tətbiq edilən yeniliklərin sərhədkeçmə proseslərinin sürətləndirilməsinə, gömrük əməliyyatlarının sadələşdirilməsinə şərait yaratdığını bildirib. O da vurğulanıb ki, həyata keçirilən islahatlar şəffaflığın təmin olunmasında, "kölgə iqtisadiyyatı"nın aradan qaldırılmasında mühüm rol oynayıb.

Daha sonra Komitə sədri BMTİP-in dəstəyi ilə həyata keçirilən "Azərbaycan və Gürcüstan arasında "Qırmızı Körpü" sərhəd-keçid məntəqəsinin inkişafına dəstək" layihəsi çərçivəsində görülən işlərdən bəhs edib.

Bildirilib ki, layihə çərçivəsində sanitar, fitosanitar, baytarlıq nəzarəti sahəsində müasir nəzəri biliklərin əldə edilməsi məqsədilə gömrükçülər və digər aiddiyyəti dövlət qurumlarının əməkdaşları üçün keçirilən seminarlar bu sahədə sərhəd idarəçiliyinin daha da təkmilləşdirilməsinə, təhlükəsizliyin gücləndirilməsinə şərait yaradıb.

BMT İnkişaf Proqramının rezident nümayəndəsi Alessandro Frakassetti Dövlət Gömrük Komitəsi ilə uzunmüddətli əməkdaşlıqdan danışıb, son illər ölkəmizdə gömrük sistemində aparılan islahatları yüksək qiymətləndirib.

Bildirilib ki, iki qurum arasındakı işgüzar münasibətlər sərhədlərdə sanitar, fitosanitar, baytarlıq nəzarətinin və bu sahədəki qanunvericilik bazasının təkmilləşdirilməsinə, müasir idarəçilik prinsiplərinin tətbiqinə mühüm töhfə verib.

Daha sonra görüşdə yeni Gömrük Məcəlləsinin layihəsinin hazırlanması, Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin strukturunun təkmilləşdirilməsi və maddi-texniki təchizatı, DGK Akademiyasının tədris proqramının təkmilləşdirilməsi sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Sonda "Azərbaycan və Gürcüstan arasında "Qırmızı Körpü" sərhəd-keçid məntəqəsinin inkişafına dəstək" layihəsi çərçivəsində Dövlət Gömrük Komitəsinə 10 ədəd avtomobil təqdim edilib.

**DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi**

# "Bergen Anlaşması"nın müddəaları ilə bağlı fikir mübadiləsi aparılıb

***İyulun 10-da Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev ilə Avropa İttifaqının Beynəlxalq və Ümumi İşlər üzrə direktoru Sabine Henzler arasında videokonfrans formatında görüş keçirilib.***







Dövlət Gömrük Komitəsinin Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu üzrə rəhbəri qismində təmsil olunduğu görüşdə "Bergen Anlaşması"nın müddəaları ilə bağlı fikir mübadiləsi aparılıb. Videokonfransda İspaniya Gömrük Xidmətinin öz iradəsi xaricində təmsil olunduğu altqrupu tərk etməsi xüsusi müzakirə mövzusu olub. DGK sədri Səfər Mehdiyev İspaniyanın müvəqqəti olaraq Qərb altqrupunda təmsil olunmasını təklif edib.

Eyni zamanda, görüşdə gömrük xidmətlərinin fəaliyyətinin pandemiyanın şərtlərinə uyğun şəkildə qurulması, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, potensialın gücləndirilməsi ofislərinin gələcək fəaliyyətinin təşkili və tənzimlənməsi ilə bağlı təklif və rəylər nəzərdən keçirilib.

Qeyd edək ki, 2009-cu ildə Bergen şəhərində imzalanan saziş Ümumdünya Gömrük Təşkilatının Siyasi Komissiyası, Maliyyə və Audit Komitələrində Avropa Regionunun təmsilçiliyinə dair prosedurları özündə ehtiva edir.

Ötən il Ümumdünya Gömrük Təşkilatının Avropa regionu üzrə sədr müavini seçilən Azərbaycan həm Şuranın, həm də Siyasi Komissiyanın sessiyalarında artıq regionun adından çıxış edir, Avropa regionu gömrük xidmətlərinin maraqlarını qoruyur.

**DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi**

# Discussions held on prospects of cooperation between State Customs Committee and UN Development Programme

***A ceremony was held on July 9 for the UN Development Programme (UNDP) to hand over to the State Customs Committee the transport vehicles purchased as part of the project Support to the Development of Red Bridge Crossing Point between Azerbaijan and Georgia.***





The online ceremony was attended by chairman of the State Customs Committee, customs service Colonel-General Safar Mehdiyev and UNDP Resident Representative Alessandro Fracassetti.

Chairman of the State Customs Committee Safar Mehdiyev expressed satisfaction with the productive relations between the UNDP and the country's customs bodies, expressed confidence that the cooperation would further strengthen.

Speaking about the reforms carried out in the customs system under the leadership of President Ilham Aliyev, chairman of the Committee said the innovations paved the way for acceleration of border-crossing processes, facilitation of customs operations. It was also underlined that the reforms had played an important role in ensuring transparency and eliminating the shadow economy.

Following this, chairman of the Committee talked about the work done as part of the project Support to the Development of Red Bridge Crossing Point between Azerbaijan and Georgia implemented with the support of the UNDP.

He said that the seminars held for the customs officers and employees of other relevant government agencies with the view of improving theoretical knowledge in the area of sanitary, phytosanitary, veterinary control paved the way for further improvement of border management and strengthening of the security.

UNDP Resident Representative Alessandro Fracassetti spoke about the long-term cooperation with the State Customs Committee, highly appreciated the reforms carried out in the country in the customs system over the recent years.

It was said that the relations between the two bodies had made a significant contribution to improving sanitary, phytosanitary and veterinary control and the legislative basis in this sphere, applying modern principle of governance.

Following this, discussions were held on the cooperation in the areas of developing the new draft Customs Code, improving the structure of the Medical Service Department of the State Customs Committee, its logistics and education program of the Academy of the State Customs Committee.

At the end of the event, 10 automobiles were handed over to the State Customs Committee as part of the project Support to the Development of Red Bridge Crossing Point between Azerbaijan and Georgia implemented with the support of the UNDP.

**Press and Public Affairs Department of the State Customs Committee**

# Gömrük Akademiyasının magistratura səviyyəsi üzrə qəbul planı 100 faiz dolub

***Dövlət İmtahan Mərkəzinin ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olmaq üçün keçirilən müsabiqənin nəticələrinə əsasən, Dövlət Gömrük Komitəsinin Akademiyası üzrə yüksək göstərici qeydə alınıb.***




Gömrük Akademiyasının magistratura səviyyəsi üzrə qəbul planı 100 faiz dolub.

Bu il Akademiyada magistratura səviyyəsinə qəbul üçün Dünya iqtisadiyyatı istiqaməti üzrə "Gömrük işi" ixtisası üzrə 10 yer və Hüquqşünaslıq istiqaməti üzrə "Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası" ixtisası üzrə 5 yer ayrılıb. Onu da qeyd edək ki, Akademiyanın magistraturasına qəbul olan magistrantların hamısı dövlət sifarişi əsasında təhsil alacaqlar.

Qeyd edək ki, iyulun 6-15 tarixlərində magistratura səviyyəsinə qəbul olmuş bakalavrların qeydiyyatının aparılması və sənədlərinin qəbul edilməsi nəzərdə tutulur. Bu istiqamətdə koronavirus pandemiyasına qarşı bütün təhlükəsizlik tələbləri gözlənilməklə hazırlıq işləri aparılır və bununla bağlı əlavə məlumat veriləcək.

# Şəffaflığın təmin olunması gömrük sistemində aparılan islahatların əsas hədəflərindən biridir

***Ölkə başçısı tərəfindən gömrük sistemində aparılan islahatların əsas hədəflərindən biri də şəffaflığın təmin olunması, korrupsiya hallarının tam aradan qaldırılmasıdır.***



Gömrük sahəsində şəffaflığın təmin edilməsi, korrupsiyaya qarşı mübarizənin aparılması, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması istiqamətində Dövlət Gömrük Komitəsi (DGK) tərəfindən mütəmadi olaraq tədbirlər həyata keçirilir.

Dövlət Gömrük Komitəsi və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşlarının birgə gerçəkləşdirdikləri növbəti uğurlu əməliyyat tədbiri nəticəsində daha bir gömrük əməkdaşının qanunsuz əməli ifşa olunub.

Dövlət Gömrük Komitəsinin Əməliyyat və İstintaq Baş İdarəsinə Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinin Tranzit şöbəsinin rəisi vəzifəsində çalışan Ceyhun Babayevin qanunsuz hərəkətləri barədə əməliyyat məlumatı daxil olub və bununla əlaqədar olaraq sözügedən hüquqazidd əməlin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlərin görülməsi təmin edilib.

Belə ki, qüvvədə olan cinayət-prosessual qanunvericiliyinin tələblərinə uyğun olaraq hazırlanan cinayət haqqında məlumat gömrük orqanları tərəfindən istintaq aidiyyəti üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilib. Nəticədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və DGK Əməliyyat və İstintaq Baş İdarəsinin əməkdaşlarından ibarət əməliyyat qrupu yaradılıb.

Birgə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Ceyhun Babayev daşıma fəaliyyəti ilə məşğul olan "Gate Est Group" MMC və "İnterlogistics" MMC-nin səlahiyyətli nümayəndəsindən MMC-lərə məxsus malların tranzit gömrük rəsmləşdirilməsinin tezləşdirilməsi müqabilində rüşvət kimi tələb etdiyi hər avtomaşına görə 50 ABŞ (85 manat) dolları olmaqla, ümumilikdə isə 15 avtomaşına görə 750 ABŞ dolları (1275 manat) məbləğində pulu 23 iyun 2020-ci il tarixində alarkən cinayət başında prokurorluq və gömrük orqanlarının əməkdaşları tərəfindən yaxalanıb.

Faktla bağlı cinayət işi başlanılaraq Ceyhun Babayeva Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsində nəzərdə tutulmuş ittiham elan olunub və barəsində məhkəmənin qərarı ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, gömrük sistemində şəffaflığın təmin olunması, korrupsiya hallarının tam aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər mütəmadi xarakter daşıyır və aşkar edilən bütün hüquqazidd əməllər barədə ictimaiyyət məlumatlandırılacaq.

**DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi**

# Qaçaqmalçılıq hallarına qarşı mübarizə tədbirləri davam edir

***Azərbaycan gömrük orqanları gömrük hüquqpozmalarına, eləcə də qaçaqmalçılıq hallarına qarşı mübarizə tədbirlərini davam etdirir.***

Qərb Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinin əməkdaşları iki fakt üzrə siqaretlərin gömrük nəzarətindən gizlədilərək ölkə ərazisinə keçirilməsi cəhdinin qarşısını alıblar. Hər iki fakt idarənin "Qırmızı Körpü" gömrük postunda qeydə alınıb.

Belə ki, Gürcüstandan gələn Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi "Volvo" markalı və Türkiyə Respublikası vətəndaşının idarə etdiyi "İVECO" markalı yük avtomobilləri saxlanılıb və gömrük baxışı keçirilib. Baxış zamanı nəqliyyat vasitələrinin gizli saxlanc yerlərində ümumilikdə 3600 ədəd "Marlboro" markalı siqaret aşkarlanıb.

* * *

Şimal Ərazi Baş Gömrük İdarəsinin "Samur" gömrük postunda iki fakt üzrə dərman preparatları və siqaretlərin gömrük nəzarətindən gizlədilərək ölkə ərazisinə keçirilməsi cəhdinin qarşısı alınıb.

Baş İdarənin Əməliyyat və təhqiqat şöbəsinə daxil olan məlumat əsasında, Rusiya Federasiyasından gələn Azərbaycan vətəndaşlarının idarə etdiy "Mercedez-Benz Actros" və "DAF" markalı yük avtomobillərinə gömrük baxışı keçirilib. Yoxlama zamanı nəqliyyat vasitələrində 2060 ədəd "Parliament Heets", 200 ədəd "Marlboro micro", 1180 ədəd "King" markalı siqaretlər və 276 həb müxtəlif adda dərman preparatları aşkar edilib.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda 3 fakt üzrə 5000 ədəd müxtəlif markalı siqaretlərin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsinin qarşısı alınıb.

Belə ki, Gürcüstandan gələn, Azərbaycan Respublikası vətəndaşlarının idarə etdiyi "MAN", "Mercedes-Benz Actors" və Türkiyə Respublikası vətəndaşının idarə etdiyi "DAF" markalı yük avtomobilləri saxlanılıb və gömrük baxışı keçirilib. Baxış zamanı avtomobillərin gizli saxlanc yerlərində ümumilikdə 5000 ədəd "Marlboro" markalı siqaret aşkarlanıb.

* * *

Şimal Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və təhqiqat şöbəsinə daxil olan məlumat əsasında, Rusiya Federasiyası istiqamətindən "Samur" gömrük postunun idxal gömrük nəzarəti xəttinə daxil olan Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi "DAF" markalı yük nəqliyyat vasitəsinə gömrük baxışı keçirilib.

Yoxlama zamanı avtomobilin gizlin saxlanc yerlərində gömrük nəzarətindən gizlədilən - qutusu və aksesuarları ilə birlikdə 1 ədəd "Huawei 10 Lite 64 GB", 1 ədəd qutu və aksesuarları olmayan "Huawei Mate 30 Pro 256 GB", 1 ədəd "Honor 32 GB" markalı mobil telefon, 5 adda 39 ədəd spirtli içki, 460 ədəd həb, 110 ədəd kapsul, 20 ampul və 16 flakon müxtəlif adda dərman preparatları, şəxsi əşyaların içərisində isə gömrük nəzarətinə bəyan edilməyən 1 ədəd xəz dərili gödəkcə aşkar edilib.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin əməkdaşları xarici valyutanın ölkənin gömrük sərhəddindən bəyan etmədən keçirilməsinin qarşısını alıblar.

İdarənin "Qırmızı Körpü" gömrük postunda Gürcüstana gedən "Mercedez-Benz Atego" markalı nəqliyyat vasitəsi saxlanılıb və sürücü sorğu-sual olunub. Bu zaman vətəndaş idarə etdiyi avtomobildə gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirib. Yoxlama zamanı isə nəqliyyat vasitəsinin salonunda köynəyə bükülü halda gömrük nəzarətinə bəyan edilməyən 22400 ABŞ dolları aşkar edilib.



* * *

Şimal Ərazi Baş Gömrük İdarəsinin əməkdaşları spirtli içki və siqaretlərin qanunsuz yolla ölkə ərazisinə gətirilməsinin qarşısını alıblar.

Əməliyyat və təhqiqat şöbəsinə daxil olan məlumat əsasında, Rusiya Federasiyası istiqamətindən "Samur" gömrük postunun idxal gömrük nəzarəti xəttinə daxil olan Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi "Volvo" markalı yük avtomobili saxlanılıb. Yoxlama zamanı nəqliyyat vasitəsinin gizli saxlanc yerlərində gömrük nəzarətindən gizlədilən 6000 ədəd "Parliament Heets" markalı siqaret və gömrük nəzarətinə bəyan olunmayan 16 ədəd 0,7 litrlik "Beluga Noble" markalı spirtli içki aşkar edilib.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin əməkdaşları mobil telefonların qanunsuz yolla ölkə ərazisinə gətirilməsinin qarşısını alıblar.

Belə ki, idarənin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan gələn, həmin ölkə vətəndaşının idarə etdiyi "DAF" markalı yük avtomobili saxlanılıb və sürücü sorğu-sual olunub. Bu zaman o, idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən har hansı predmetin olmadığını bildirib. Lakin yoxlama zamanı nəqliyyat vasitəsinin qoşqusunda olan və ölkə ərazisinə gömrük rəsmiləşdirilməsi üçün gətirilən "Toyota Prius" markalı avtomobilin baqajının sağ-sol ətraflarında gömrük nəzarətindən gizlədilən 8 ədəd "Samsung A 51 Prism Crush", 1 ədəd "Mi Note 10 Pro Aurora Green 8 GB" və 1 ədəd "Mi Note 10 Pro Midnight Black 8 GB" markalı mobil telefonlar aşkar edilib.

* * *

Şimal Ərazi Baş Gömrük İdarəsinin əməkdaşları iki fakt üzrə mobil telefonların, siqaretlərin və dərman preparatlarının gömrük nəzarətindən gizlədilərək ölkə ərazisinə keçirilməsi cəhdinin qarşısını alıblar.

Əməliyyat və təhqiqat şöbəsinə daxil olan məlumat əsasında, Rusiya Federasiyası istiqamətindən "Samur" gömrük postunun idxal gömrük nəzarəti xəttinə daxil olan Azərbaycan Respublikası vətəndaşlarının idarə etdikləri "DAF" və "Mercedes-BenzActros" markalı yük avtomobilləri saxlanılıb. Yoxlama zamanı nəqliyyat vasitələrindən birinin sürücüsünün üzərində gömrük nəzarətindən gizlədilən iki ədəd "Vertu" markalı mobil telefon, digər yük avtomobilinin gizli saxlanc yerlərində isə 1600 ədəd "Parliament Heets" markalı siqaret və 400 kapsul dərman preparatı aşkar edilib.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda beş fakt üzrə siqaretlərin gömrük nəzarətindən gizlədilərək ölkə ərazisinə keçirilməsi cəhdinin qarşısı alınıb.

Belə ki, Gürcüstandan gələn Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi "DAF" və Türkiyə Respublikası vətəndaşlarının idarə etdikləri "İVECO", "Mercedes-Benz", "Volvo" və "Mercedes-Benz 1840 LS" markalı yük avtomobilləri saxlanılıb və gömrük baxışı keçirilib. Baxış zamanı həmin nəqliyyat vasitələrində gömrük nəzarətindən gizlədilən ümumilikdə 5600 ədəd "Marlboro" və 400 ədəd "Parliament Nigth Blue" markalı siqaretlər aşkarlanıb.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan gələn Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi "DAF" markalı yük nəqliyyat vasitəsi saxlanılıb. Sorğu-sual zamanı sürücü idarə etdiyi yük avtomobilində gömrük nəzarətindən gizlədilən, gömrük nəzarətinə mütləq bəyan edilməli hər hansı predmetin olmadığını bildirib. Lakin yoxlama zamanı gömrükçülər nəqliyyat vasitəsinin salonunda gömrük nəzarətindən gizlədilən, yazılı və ya şifahi formada bəyan olunmayan ümumilikdə 6 adda 18 ədəd avtomobil ehtiyat hissələri aşkar ediblər.

* * *

Şimal Ərazi Baş Gömrük İdarəsinin əməkdaşları iki fakt üzrə mobil telefonların və dərman preparatlarının qanunsuz yolla ölkəmizə gətirilməsinin qarşısını alıblar.

Əməliyyat və təhqiqat şöbəsinə daxil olan məlumat əsasında, Rusiya Federasiyası istiqamətindən "Samur" gömrük postunun idxal gömrük nəzarəti xəttinə daxil olan "DAF" və " Volvo" markalı yük nəqliyyat vasitələrinə gömrük baxışı keçirilib. Yoxlama zamanı avtomobillərin gizli saxlanc yerlərində gömrük nəzarətinə bəyan edilməyən 7 ədəd "İPhone 11 64 GB", 3 ədəd "İPhone 11 Pro Max 64 GB", 2 ədəd "İPhone 11 Pro 256 GB" markalı mobil telefonlar və 2500 kapsul dərman preparatı aşkar edilib.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin əməkdaşları dərman preparatlarının qanunsuz yola ölkə ərazisinə gətirilməsinin qarşısını alıblar.

Baş İdarənin "Mazımçay" gömrük postunda Gürcüstandan gələn, Türkiyə Respublikası vətəndaşının idarə etdiyi "Mercedes-Benz" markalı yük avtomobili saxlanılıb və gömrük baxışı keçirilib. Yoxlama zamanı nəqliyyat vasitəsinin qoşqusunun sol yan dolabında gömrük nəzarətinə bəyan edilməyən 606 ədəd müxtəlif adda dərman preparatları aşkar edilib.

* * *

Şimal Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və təhqiqat şöbəsinə daxil olan məlumat əsasında, Rusiya Federasiyası istiqamətindən "Samur" gömrük postunun idxal gömrük nəzarəti xəttinə daxil olan Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi "Mercedes Benz" markalı yük avtomobili saxlanılıb. Yoxlama zamanı nəqliyyat vasitəsində gömrük nəzarətinə bəyan edilməyən 2 ədəd qutusu və aksesuarları olmayan "İPhone" markalı mobil telefon, 310 ədəd həb, 100 kapsul, 39 flakon, 20 ampul, 30 paket müxtəlif adda dərman preparatları aşkar edilib.

***Bütün faktlarla bağlı araşdırma aparılır.***

# Rusiyalı mütəxəssislər Mərkəzi Gömrük Hospitalının fəaliyyətilə tanış olublar

***Azərbaycan Prezidenti İlham Əliyevin Nazirlər Kabineti yanında Operativ Qərargaha göstərişinə uyğun olaraq yeni növ koronavirus (COVID-19) sahəsində çalışan bir qrup xarici mütəxəssis Azərbaycana gəlib.***



İyulun 9-da koronavirus pandemiyası ilə bağlı Rusiya Federasiyasından həkim heyəti Azərbaycan Respublikasına səfər edib. Rusiya Federal Biomedikal Agentliyinin (FBMA) baş infeksionisti Vladimir Nikiforov başda olmaqla nümayəndə heyəti Mərkəzi Gömrük Hospitalında olublar.

Onlar Hospitalın şöbələrini gəzib, Reanimasiya şöbəsində və digər stasionar şöbələrdə koronavirus infeksiyası ilə müalicə olunan xəstələri ziyarət ediblər. Hospitalın həkimləri ilə birgə müalicə protokolları, görülən diaqnostik və müalicə tədbirləri barədə diskussiyalar aparılıb, müəyyən tövsiyələr verilib.

Hospitalın şöbələri ilə tanışlıqdan sonra Mərkəzi Gömrük Hospitalının baş həkimi Elman Məmmədov və müalicə işləri üzrə rəsi müavini Bəxtiyar Musayevlə rusiyalı həkimlər arasında görüş keçirilib. Görüş zamanı qonaqlar Hospital barədə öz fikirlərini söyləyiblər.

Onlar Hospitalın COVİD-19-la mübarizəyə hazırlıqda, avadanlıq və müalicə taktikası və müalicə sxemləri ilə bağlı yüksək professionallığını xüsusi qeyd ediblər. Qonaqlar, eyni zamanda, Hospitalın texniki cəhətdən hazırlığını, burada xəstələr və tibbi personal üçün xüsusi yolların ayrılmasını, nişanlanmasını, dezinfeksiya zonasını, ümumiyyətlə Hospitalın texniki təchizatını, işlənilən protokolları yüksək qiymətləndirib, ümumilikdə Mərkəzi Gömrük Hospitalının fəaliyyəti barədə xoş fikirlər səsləndiriblər.

Nüfuzlu rusiyalı mütəxəssislər Vətənimizin bu çətin günlərində COVID-19 pandemiyası şəraitində gərgin iş rejimində çalışan peşəkar və yüksəkixtisaslı həkimlərimizin və fədakar tibb işçilərimizin böyük əməyini xüsusilə vurğulayıblar.

# 2020/2021-ci tədris ili üçün Rusiya Federal Gömrük Xidməti Rusiya Gömrük Akademiyasında və onun Sankt-Peterburq və Rostov şəhərlərindəki filiallarında "Gömrük işi" ixtisası üzrə tələbə qəbulu elan edilir

Müsabiqədə iştirak etmək istəyən abituriyentlər 9-15 iyul 2020-ci il tarixlərində tələb olunan sənədləri info@dim.gov.az elektron poçt ünvanına göndərməklə qeydiyyatdan keçməlidirlər.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Rusiya Federal Gömrük Xidməti Rusiya Gömrük Akademiyası arasında əməkdaşlıq haqqında sazişə uyğun olaraq Moskva vilayəti Lüberts şəhərində yerləşən Rusiya Gömrük Akademiyası və onun Rostov filialının hər birində 1 nəfər, Sankt-Peterburq filialında isə 2 nəfər olmaqla, "Gömrük işi" ixtisası üzrə əyani təhsil alması üçün ümumilikdə 4 nəfər Azərbaycan Respublikası vətəndaşı üçün yer ayrılıb.

Müsabiqədə iştirak etmək istəyən abituriyentlər 9-15 iyul 2020-ci il tarixlərində tələb olunan sənədləri info@dim.gov.az elektron poçt ünvanına göndərməklə qeydiyyatdan keçməlidirlər.

Müsabiqədə iştirak etmək istəyən abituriyentlər qeyd olunan elektron poçt ünvanına aşağıdakı sənədlərin fotosurətlərini göndərməlidirlər:

1. Şəxsiyyət vəsiqəsi;
2. Cari ildə orta məktəbi bitirən məzunlar 2020/2021-ci tədris ili üçün təsdiq olunmuş "Abituriyentin elektron ərizəsi" forması (varsa), əks təqdirdə bitirdiyi məktəbdən illik qiymətləri göstərilən arayış;
3. Əvvəlki illərin məzunları orta təhsil haqqında sənədi;
4. Hərbi bilet və ya çağırışçı şəhadətnaməsi (oğlanlar);
5. Əlaqə məlumatları.

Müsabiqədə iştirak etmək hüququna 2020-ci ildə orta məktəbin rus bölməsini bitirən, 2020-ci il iyulun 10-dək 19 yaşı tamam olmayan, attestatında riyaziyyat, ümumi tarix, rus dili və xarici dil fənləri üzrə yekun illik qiyməti 5 olan Azərbaycan Respublikasının vətəndaşları malikdirlər.

Müsabiqədə iştirak etmək istəyənlər üçün Dövlət İmtahan Mərkəzi tərəfindən 16 iyul 2020-ci il tarixində onlayn müsahibə keçiriləcək.

Ali təhsil müəssisəsinin tələbəsi və ya məzunu olan şəxslər bu müsabiqədə iştirak etmək hüququna malik deyillər.

Ərizə qəbulunda iştirak edən və onlayn müsahibədən uğurla keçən 4 nəfərin namizədliyi ödənişsiz təhsil forması üzrə oxumaq üçün qeyd olunan Akademiyaya təqdim olunacaqdır.

Rusiya Gömrük Akademiyası tərəfindən abituriyentlər üçün ictimai fənlər, həmçinin rus dili və xarici dil fənləri üzrə distant formada imtahan keçiriləcək.

Abituriyentlər onları maraqlandıran əlavə məlumatları (+994 12) 404 22 00 (daxili 3302) telefonu və ya +994 50 216 17 99 mobil telefonu vasitəsilə, eləcə də müvafiq keçidlərdən əldə edə bilərlər.

# Информационно-аналитический обзор

### Самарские таможенники задержали партию контрафактной спортивной обуви стоимостью 66 млн руб

Партию из 15 тыс. пар контрафактной спортивной обуви известных брендов общей стоимостью около 66 млн руб. задержали сотрудники мобильной группы Самарской таможни.

Транспортное средство, следовавшее из Алматы (Республика Казахстан) в Москву, таможенники остановили 30 мая 2020 года в районе Большой Черниговки (Самарская область). В грузовом отсеке автомобиля перевозились кроссовки и сланцы марок Adidas, Nike, Reebok и Under Armour.

Согласно заключению правообладателей, задержанные товары являются контрафактными: отсутствует оригинальная заводская упаковка, качество продукции и дизайн этикеток не соответствует оригинальным. Кроме того, отправитель и получатель партии не заключали с правообладателями договор об использовании товарных знаков. Размер предотвращенного ущерба по оценкам правообладателя Adidas составил 26,6 млн руб., Nike - 24 млн руб., Reebok - 8,3 млн руб., Under Armour - 6,8 млн руб.

По выявленному факту Самарская таможня возбудила уголовное дело по ч.1 ст. 180 УК РФ. В настоящее время материалы подготавливаются для передачи по подследственности в МВД России.

***TKS.RU***

### Таможне могут разрешить расследовать контрабанду алкоголя и табака

Служащих таможенных органов могут наделить полномочиями по проведению дознания по делам о контрабанде алкоголя и табака, а пограничникам - по контрабанде денежных средств. Такой законопроект Госдума планирует рассмотреть на одном из ближайших пленарных заседаний в первом чтении.

В настоящее время таможенные органы в полном объеме правомочны расследовать в форме дознания только уголовные дела о преступлениях, связанных с уклонением от уплаты таможенных платежей и контрабандой наличных денежных средств и денежных инструментов.

Правительство предлагает разрешить таможенникам проводить дознание по преступлениям, предусмотренным ст. 200.2 УК РФ («Контрабанда алкогольной продукции и/или табачных изделий»). Пограничники также смогут производить дознание по этой статье и по ст. 200.1 («Контрабанда наличных денежных средств и (или) денежных инструментов»).

В правительстве рассчитывают, что внесение указанных изменений позволит снизить нагрузку на следственные подразделения иных правоохранительных органов, в которые, по данным Минфина России, за период с 2014 по 2018 годы таможенными органами было передано по подследственности свыше 8,5 тыс. уголовных дел, а также более 12 тыс. сообщений о преступлениях.

***Парламентская газета***

### 127 бутылок незаконно ввезенного алкоголя обнаружили хабаровские таможенники на судне в порту Ванино

127 бутылок (более 43 литров) незаконно ввезенного алкоголя обнаружили таможенники на судне, прибывшем в порт Ванино из порта Донхэ (Южная Корея). Бутылки с пивом и корейским алкогольным напитком были спрятаны в кладовой судна.

Установлено, что горячительные напитки приобрел член экипажа в порту Донхэ, однако зная о допустимых нормах беспошлинного ввоза алкогольной продукции, спрятал их в кладовой на борту судна.

Как сообщили в пресс-службе ДВТУ, в отношении моряка Хабаровская таможня возбудила дело об административном правонарушении по части 1 статьи 16.2 КоАП РФ «Недекларирование по установленной форме товаров, подлежащих таможенному декларированию». Нарушителю грозит наказание в виде административного штрафа с конфискацией товара или без таковой.

В настоящее время товар изъят и помещён в камеру хранения до решения суда.

Для личного пользования физическим лицам, достигшим 18-летнего возраста, без уплаты таможенных платежей разрешен ввоз не более трёх литров алкогольной продукции и пива, а с уплатой таможенных платежей - не более пяти литров. Алкоголь, общим объёмом более 5 литров к ввозу запрещен.

***TKS.RU***

### Минсельхоз намерен сделать механизм квотирования экспорта зерна постоянным

Минсельхоз РФ планирует сделать механизм квотирования экспорта зерна постоянным. Параметры квоты на следующий год могут быть определены после получения урожая, сообщил в интервью ТАСС министр сельского хозяйства России Дмитрий Патрушев.

"Мы хотим, чтобы механизм квотирования стал постоянным. Планируем определить параметры квотирования совместно с участниками рынка после получения итоговых данных об урожае нового сезона - предположительно, в октябре текущего года", - сказал он.

По словам главы Минсельхоза, российское зерно пользуется повышенным спросом в мире, и отсутствие мер контроля потенциально может привести к его нехватке на внутреннем рынке. При этом министр подчеркнул, что для первой половины сельскохозяйственного года применение такой меры не предполагается. "Размер нетарифной квоты будет определяться исходя из балансов поставок и объемов урожая", - заявил Патрушев.

Как сообщалось ранее, во второй половине прошлого сельхозгода (1 июля 2019 года - 30 июня 2020 года) Минсельхоз вводил квоту на экспорт зерна из России в размере 7 млн тонн.

Говоря о возможности введения экспортной пошлины на зерно, министр отметил, что это механизм, который забирает часть дохода у сельхозтоваропроизводителя. "У нас же стоит задача по наращиванию производства продукции растениеводства. Кроме того, пошлина не защищает внутренний рынок от слишком активного экспорта. Сейчас оснований для применения этого инструмента мы не видим", - заключил он.

***ТАСС***

### Юрлица могут запретить ликвидировать до завершения любых таможенных проверок

Ликвидация юрлица может быть запрещена до завершения камеральной таможенной проверки. Соответствующий законопроект Госдума приняла во втором чтении.

Согласно действующему законодательству, проведение данного вида проверки ограничено сроком в 90 календарных дней с возможностью однократного продления на 120 календарных дней.

Как ранее пояснял статс-секретарь - заместитель министра финансов Алексей Сазанов, законопроект направлен на повышение эффективности работы с дебиторской задолженностью перед таможенными органами. В настоящее время действует норма о недопущении ликвидации юридических лиц, в отношении которых проводится выездная таможенная проверка. Законопроектом предлагается установить аналогичный запрет на ликвидацию юрлиц, в отношении которых проводится камеральная таможенная проверка.

***Парламентская газета***

Baş redaktor
N.S.AXUNDOV



«Gömrük xəbərləri»
ictimai-siyasi qəzet

Redaksiyanın ünvanı:
AZ 1007
Bakı şəhəri,
Koveroçkin küçəsi, 30a
Tel.: (012) 404 22 00

Kapital bankın 1 saylı
Nəsimi rayon filialı.
Hesab nömrəmiz 160233070000
kod 200112.
VÖEN 1300315681

LİSENZİYA:
Seriya AV №022325
Qeydiyyat
nömrəsi V 125

İndeks 0178